AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpiyadunyası.az
*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*
*№ 5 (1452), 8 - 14 sentyabr 2020-ci il*
*Qəzet 2001-ci ildən çıxır.*




## Bakıda Tokio-2020-yə lisenziya yarışları keçiriləcək

Dekabrda Milli Gimnastika Arenası daha bir qitə birinciliyinə ev sahibliyi edəcək. Kişi idman gimnastlarının yarışından dərhal sonra bu dəfə arena öz qapılarını qadın idman gimnastları üçün açacaq.

Qadın idman gimnastikası üzrə 33-cü Avropa çempionatının dekabrın 17-20-də keçirilməsi planlaşdırılır. Qadınların qitə birinciliyinin daha öncə aprelin 30-dan mayın 3-dək Parisdə (Fransa) keçirilməsi nəzərdə tutulmuşdu. Lakin bütün dünyada yayılmış COVID-19 pandemiyası ilə əlaqədar olaraq bu yarış da təxirə salındı. Fransa Gimnastika Federasiyası isə çempionatı daha sonrakı tarixlərdə təşkil edə bilməyəcəyini bildirdi.

Bundan sonra Azərbaycan Gimnastika Federasiyasının istəyi əsasında "Avropa Gimnastikası" yarışın Bakıda keçirilməsinə qərar verdi.

Yarışın formatı planlaşdırıldığı kimi qalacaq və Olimpiya Oyunlarına təsnifat xarakteri daşıyacaq. Belə ki, çempionat Tokio-2020-yə hələ vəsiqə qazanmamış bəzi gimnastlar üçün lisenziya əldə etmək şansı verəcək.

Qeyd edək ki, kişi idman gimnastikası üzrə Avropa çempionatı isə dekabrın 9-13-də keçiriləcək.

## AOK-un yeni prezidenti gələn il müəyyənləşəcək

Avropa Olimpiya Komitələrinin (AOK) İcraiyyə Komitəsi qurumun prezidenti vəzifəsinə seçkilərin 2021-ci ilin fevralında keçirilməsini təklif edib. Bu barədə AOK-un mətbuat xidməti məlumat yayıb.

Məlumatda bildirilib ki, qurumun prezidentliyinə erkən seçkilərin keçirilməsi üçün ilk növbədə AOK-un nizamnaməsinə dəyişiklik edilməlidir. Təklif olunan düzəliş təsdiqlənərsə, seçkilər 2021-ci il fevralın sonunda baş tuta bilər.

Xatırladaq ki, AOK-un sonuncu prezidenti Yanes Koçançiç uzun sürən xəstəlikdən sonra iyunun 1-də vəfat edib. Qurumun əsasnaməsinə görə, birinci vitse-prezident Nils Nyuqor seçkilərə qədər prezident səlahiyyətlərini yerinə yetirir.

Yetmiş doqquz yaşında vəfat edən Y.Koçançiç 2017-ci ildən AOK-a rəhbərlik edib. O, 2015-ci ildən qurumun İcraiyyə Komitəsinə üzv seçilib. Y.Koçançiç bir neçə dəfə Azərbaycanda olub. O, ötən il Bakıda keçirilən XV Avropa Gənclər Yay Olimpiya Festivalının açılış mərasimində də iştirak edib.

## Olimpizm

### Olimpiya məşəli ictimaiyyətə təqdim olundu

Gələn ilin yayınadək təxirə salınmış Tokio Yay Olimpiya və Paralimpiya Oyunlarının məşəli Yaponiya paytaxtında ictimaiyyətə təqdim olunub. Bu münasibətlə keçirilən mərasimdə Yaponiya hökumətinin, Milli Olimpiya Komitəsinin, Tokio administrasiyasının və Oyunların Təşkilat Komitəsinin üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Xatırladaq ki,



Olimpiya məşəli Yunanıstandan Yaponiyaya martın 20-də, Oyunların gələn ilədək təxirə salınması barədə qərarın qəbulundan dörd gün əvvəl gətirilib. Məşəl Tokionun Şincuku rayonunda yerləşən Yaponiya Olimpiya Muzeyində nümayiş etdirilir. Mərasimdə çıxış edən Yaponiya Milli Olimpiya Komitəsinin sədri Yamaşita Yasuhiro bildirib ki, Olimpiya və Paralimpiya Oyunlarına qatılmaq istəyən idmançılar hazırda yorulmadan məşq edirlər. Tokioda Olimpiya məşəlinin ictimaiyyətə təqdim edilməsi bu idmançılara emosional dəstəkdir.

Yaponiya Olimpiya və Paralimpiya Oyunları naziri xanım Haşimoto Seyko isə bildirib ki, məşəl ümid deməkdir. Yaponiya hökuməti koronavirusun yayılmasının qarşısını almaq və Oyunların yüksək səviyyədə təşkili üçün əlindən gələni edəcək.

Qeyd edək ki, Olimpiya məşəlinə baxmaq istəyənlər əvvəlcədən bron götürməlidirlər. Eyni zamanda, muzey koronavirus pandemiyası ilə əlaqədar tamaşaçıların sayını azaltmağa çalışır. Muzeyə girişin qiyməti 500 yen (təqribən 5 dollar) olsa da, uşaqlar və məktəblilər üçün biletlər ödənişsizdir.

Olimpiya məşəli ziyarətçilərə noyabrın 1-dək nümayiş etdiriləcək.

### Tokio-2020: İdmançılar karantin rejimindən azad ediləcəklər

Yaponiya hökuməti Tokio Olimpiadasında iştirak etmək üçün ölkəyə gələcək idmançılara Olimpiadadan əvvəl iki həftəlik karantin rejiminin tətbiq edilməməsi üçün bəzi variantları nəzərdən keçirməyə başlayıb. Bu barədə Yaponiyanın NHK telekanalı məlumat yayıb. Məlumatda bildirilir ki, Yaponiya rəsmiləri hazırda koronavirusun yayılmasının qarşısını almaq üçün istifadə olunan təcridetmənin idmançılara mənfi təsir edə biləcəyini düşünürlər. Bununla əlaqədar koronavirusa qarşı tədbirlər üzrə Olimpiya və hökumət rəsmilərindən ibarət işçi qrup ilk iclasını keçirəcək. Sessiyada sərhəd nəzarəti, virusun profilaktikası və pandemiyaya cavab tədbirləri müzakirə olunacaq. Bundan əlavə, işçi qrup yarış zamanı idmançıların və məmurların hərəkətlərini izləmək üçün yeni mobil tətbiqetmə imkanlarını nəzərdən keçirəcəklər. Oyunlar zamanı ölkəyə giriş və çıxış prosedurunda koronavirusla bağlı götürülən testin nəticəsi əsas tələblərdən biri olacaq.

Qarşıdakı məsləhətləşmələr zamanı Yaponiya tərəfi Olimpiadadan əvvəl idmançılar üçün təlim-məşq toplanışı qaydalarını da hazırlamaqla bağlı müzakirələr aparacaq. Gündəmdə digər mövzular arasında yoluxma sayında artımın öhdəsindən gəlmək üçün xəstəxanalarda yer çatışmazlığı və idman müəssisələrində atletlərin sağlamlığının yoxlanılması üçün yerlərin təşkil edilməsi də var. Pandemiya səngiməsə, işçi qrupun stadionlarda tamaşaçı sayını azaltmaq variantını da müzakirə edəcəyi gözlənilir.

Tokio Olimpiadası 2020-ci ilin iyulun 24-dən avqustun 9-dək keçirilməli idi. Koronavirus pandemiyası səbəbindən Olimpiada bir il təxirə salınıb və iyulun 23-dən avqustun 8-dək keçirilməsi planlaşdırılır.

## Milli Olimpiya Komitəsi maskot müsabiqəsi elan edir

Azərbaycan Milli Olimpiya Komitəsi ölkəmizi tədbirlərdə təmsil edəcək maskotu xalqımızla birlikdə müəyyənləşdirəcək. Öz ideyasına, bacarıqlarına güvənən hər kəs kağızda və ya kompüter proqramlarının köməyi ilə hazırladığı işləri 1 oktyabr tarixinədək mövzuda "Maskot" qeyd etməklə MOK-un e-mail ünvanına (marketing@noc-aze.org) göndərə bilər. Personaj ideyası seçimində sərhəd yoxdur. Maskot əyləncəli olmaqla yanaşı, Olimpiya detallarını özündə birləşdirməlidir. İştirakçıların təkliflərini personajın (ideyanı anlatmaq) qısa tanıtımı ilə bir yerdə göndərməlidirlər. Müsabiqənin qalibi Milli Olimpiya Komitəsində təşkil olunacaq münsiflər heyətinin rəyinə əsasən müəyyən ediləcək. Qalib olan işin müəllifi xüsusi medalla təltif ediləcək. Qeyd edək ki, qalib olaraq seçilmiş talisman rəsmi şəkildə Azərbaycan Olimpiya Komitəsinin mülkiyyətinə keçmiş olacaq.

Müsabiqəyə qoşulun, siz də Azərbaycan Olimpiya tarixinin bir hissəsi olmaq şansını qazanın!

## Anons

*Komandamız Avropa çempionatında tam heyətlə iştirak edəcək*
Səh. 3

"Tokio Yay Olimpiya Oyunlarının təxirə salınması təsadüfdən irəli gələn zərurətdir"
Səh. 4

**Şəfəq Hüseynli:**
"İdmanın fəlsəfəsində sağlamlıq dayanır"
Səh. 6

**UEFA MİLLƏTLƏR LİQASI 2020** (II tur)

**"Kipr" - "Azərbaycan"**

*08 sentyabr. Nikosiya. Neo GSP stadionu. Saat 22:45.*

KOΠ CFA AFFA

# Avropa çempionatının yeri dəyişdirilə bilər

Azərbaycan Avropa Velosipedçilər Birliyinin (UEC) Direktorlar Komitəsinin növbəti iclasında təmsil olunub. Koronavirus pandemiyası ilə əlaqədar Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) birinci vitse-prezidenti, UEC Direktorlar Komitəsinin üzvü Sahib Ələkbərov və qurumun Rusiyadan olan vitse-prezidenti Aleksandr Qusyatnikov iclasa videokonfrans rejimində qoşulublar.

Müzakirələr zamanı qeyd olunub ki, COVID-19 pandemiyası səbəbindən idmanın bütün növlərində olduğu kimi, velosiped idmanında da beynəlxalq yarış təqviminin ciddi dəyişikliyə məruz qalması mötəbər qurumların rəhbərlərini vəziyyətdən çıxış yolu axtarmağa sövq edir.

Bununla əlaqədar Avropa Velosipedçilər Birliyi 2020-ci ilin təqvim planında yer alan şose, MTB (dağ velosipedi), BMX və trek velosipedi üzrə qitə çempionatları, həmçinin Avropa Kuboku yarışlarının təşkilində məcburi dəyişikliklər etmək məcburiyyətində qalıb. Tədbirdə Tokio-2020 Yay Olimpiya Oyunlarının gələn il iyulun 23-dən avqustun 8-dək keçirilməsinin planlaşdırıldığı, eləcə də bir sıra digər məsələlər nəzərə alınaraq, 2021-ci ilin avqustunda velosiped idmanının müxtəlif növləri üzrə Minskin qəbul etməli olduğu birləşmiş Avropa çempionatının yerinin dəyişdirilməsi məsələsi ciddi müzakirə olunub.

Bundan başqa, gələn ilin martında Danimarkada keçiriləcək Avropa Velosipedçilər Birliyinin Konqresi, qurumun prezidenti vəzifəsinə və Direktorlar Komitəsinin üzvlüyünə yeni seçkilərlə bağlı fikir mübadiləsi aparılıb.

AzVİF-in birinci vitse-prezidenti S.Ələkbərov iclasda çıxış edib.




# Qitə çempionatında 13 gimnastımız yarışacaq

Bədii gimnastika üzrə Azərbaycan millisi Ukraynanın paytaxtı Kiyevdə keçiriləcək Avropa çempionatında iştirak edəcək. Yığma komandamız turnirdə 13 idmançı ilə təmsil olunacaq. Böyüklərin yarışında 8, gənclərin mübarizəsində isə 5 gimnast qüvvəsini sınayacaq. Qeyd edək ki, 26 - 29 noyabr tarixlərində təşkili nəzərdə tutulan Avropa çempionatında iştirak üçün indiyədək 39 ölkə müraciət edib. Ən diqqət çəkən məqam Rusiyanın yarışa qatılmamasıdır. Turnirdə 300-ə yaxın gimnastın iştirakı gözlənilir. AÇ ilə bağlı yekun qərar sentyabrın 28-də qəbul olunacaq.

## *Azərbaycan Avropa Triatlon İttifaqının Baş Assambleyasında iştirak edib*

Azərbaycan Triatlon Federasiyasının nümayəndələri Avropa Triatlon İttifaqının onlayn formatda keçirilən Baş Assambleyasında iştirak ediblər. Əvvəlcə tədbirin Avropa çempionatı zamanı Tartuda (Estoniya) keçirilməsi planlaşdırılırdı. Lakin sonradan koronavirusla bağlı tədbir təxirə salınıb. Forum iştirakçıları Avropa Triatlon İttifaqının başçısı Renato Bertrandinin rəhbərliyi altında bir sıra məsələləri, o cümlədən mövsümün tamamilə bərpası müddətini müzakirə ediblər.

## Birinci MDB Oyunları yenidən təxirə salındı

Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazanın ev sahibliyi edəcəyi birinci MDB Oyunları 2021-ci ilə təxirə salınıb. Bu barədə Tatarıstanın İdman naziri Vladimir Leonov məlumat verib. O bildirib ki, yarışların yay aylarında təşkili nəzərdə tutulub və hazırda federasiyalarla bu barədə müzakirələr aparılır.

Qeyd edək ki, birinci MDB Oyunlarının əvvəlcə avqustun 20-27-də keçirilməsi planlaşdırılsa da, yarışlar koronavirus səbəbindən təxirə salınıb.

Birinci MDB Oyunlarında Rusiya ilə yanaşı, Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan, Özbəkistan, Ermənistan və Ukrayna komandaları iştirak edəcəklər. Bundan əlavə, Təşkilat Komitəsi başqa ölkələri də Oyunlara dəvət edə bilər. Kazanın bu yarışlarda 2 mindən çox idmançını və 600 rəsmi şəxsi qəbul edəcəyi gözlənilir.

Atletlər Tatarıstan paytaxtında idmanın 19 növü üzrə mübarizə aparacaqlar.



## “Azərbaycanın Olimpiya Odisseyası” layihəsi çərçivəsində növbəti görüş

“Könüllülər ili”ndə Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsinin, Azərbaycan Məktəb İdmanları Federasiyasının, “Azərbaycan İdman Könüllüləri” və “Azərbaycan İdmançıları” İctimai birliklərinin təşkilatçılığı ilə reallaşdırılan “Azərbaycanın Olimpiya Odisseyası” layihəsi çərçivəsində növbəti onlayn görüş keçirilib. Tədbirdə Olimpiya Oyunlarının mükafatçısı, sabiq peşəkar boksçu və “Tərəqqi” medallı Fuad Aslanovun idman ictimaiyyəti, gənclər və könüllülərlə görüşü təşkil olunub. Fuad Aslanov tədbir iştirakçılarına boks idman növünün dərinlikləri, idmana gəlişi və karyerası ərzində qarşılaşdığı çətinliklər, eləcə də üzləşdiyi problemlərin həll yolları, qazandığı nailiyyətlər və qarşıdakı hədəflərdən bəhs edib. O, pandemiya dövründə gənclərin və yeniyetmələrin idmandan geri qalmamaları və onların gələcək karyeralarında önəmli rol oynayacaq məsələlərlə bağlı tövsiyələrini və fikirlərini iştirakçılarla bölüşüb.

Sonra Fuad Aslanov idman ictimaiyyətinin, gənclərin və könüllülərin suallarını cavablandırıb, onlara tövsiyələrini verib.

## Los-Anceles-2028 Yay Olimpiya Oyunlarının loqosu təqdim edilib

2028-ci ildə ABŞ-ın Los-Anceles şəhərində keçiriləcək XXXIV Yay Olimpiya Oyunlarının rəsmi loqosu təqdim olunub. Bu barədə Oyunların təşkilat komitəsinin saytında məlumat verilib. Los-Anceles-2028-in Təşkilat Komitəsi tərəfindən təqdim edilən loqoda LA hərfləri və 28 rəqəmi yer alıb.

Emblemin yaradılması üçün müğənni Billi Ayliş, altıqat Olimpiya çempionu Ellison Feliks, Olimpiadanın qızıl medalçıları Xloya Kim, futbolçu Aleks Morqan, dördqat çempion Maykl Conson, Oyunların iki dəfə qalibi adını qazanmış Simone Manuel öz hekayələrini paylaşıblar.

Olimpiya Oyunları Los-Ancelesdə üçüncü dəfə keçiriləcək. Bu şəhər 1932-ci və 1984-cü illərdə də Olimpiadaya ev sahibliyi edib.

## Qış Olimpiadasının loqotipini hazırlamaq üçün müsabiqə elan edilib

2022-ci ildə Kazanda keçiriləcək Ümumdünya Xüsusi Qış Olimpiya Oyunlarının loqotipini hazırlamaq üçün müsabiqə elan edilib. Müsabiqədə 16 yaşdan yuxarı şəxslər iştirak edə bilərlər. Müsabiqənin qalibi 100 min rubl pul mükafatı alacaq. Dizayn layihələri sentyabrın 3-dən 30-dək qəbul ediləcək. Qalib 2020-ci il oktyabrın ortalarınadək müəyyənləşəcək. Ümumdünya Xüsusi Qış Olimpiya Oyunları 2022-ci il yanvarın 22-28-də keçiriləcək.

Qeyd edək ki, Azərbaycanın florbol (topla döşəmə üzərində xokkey) komandası 2017-ci ildə Avstriyanın Qraz şəhərində keçirilən Ümumdünya Xüsusi Qış Olimpiya Oyunlarının qalibi olub.

## *Pyer Qasli Formula 1 tarixində qələbə qazanan 109-cu pilot oldu*

“AlphaTauri” komandasının pilotu Pyer Qasli karyerasında ilk qələbəsini qazanıb. Fransalı pilot Formula 1 İtaliya Qran-Prisinin qalibi olub. P.Qasli karyerasında ilk qələbəsinə Montsa avtodromunda keçirilən yarışda nail olub. 56 dövrəlik mübarizədə ikinci yeri “McLaren” komandasının pilotu Karlos Sayns əldə edib. İlk üçlüyü “Racing Point”in pilotu Lens Stroll tamamlayıb. Pilotların siyahısına 164 xalla “Mercedes”in pilotu Luis Hamilton başçılıq edir. “Mercedes”in digər sürücüsü Valtteri Bottas 117 xalla ikinci, Maks Ferstappen (“Red Bull”) isə 110 xalla üçüncü pillədə qərarlaşıblar.

Qeyd edək ki, P.Qasli Formula 1 tarixində qələbə qazanan 109-cu pilot olub. O, Olive Panisadan sonra qələbə qazanan ikinci fransalı idmançıdır. O.Panisa 1996-cı ildə Monako Qran-Prisinin qalibi olub.

Növbəti yarış sentyabrın 13-də yenidən İtaliyada təşkil olunacaq.



## On yaşlı gimnastımız "Azerbaijan Golden Kids Awards 2020" mükafatına layiq görülüb

Azərbaycan Könüllülər İctimai Birliyinin artıq 3-cü ildir ki, reallaşdırdığı "Azerbaijan Golden Kids Awards 2020" layihəsi bu dəfə öz mükafatlandırma mərasimini videoformatda keçirib.

Mükafatlandırılan istedadlı uşaqlar arasında ölkəmizi dünyanın bir çox beynəlxalq bədii gimnastika yarışlarında uğurla təmsil edən 10 yaşlı balaca gimnastımız Mina Abbasova da var. O, "Azərbaycanı xaricdə uğurla təmsil etdiyinə görə" nominasiyasına təltif olunub.

Azərbaycan Könüllər İctimai Birliyinin Mədəniyyət və incəsənət departamentinin sədri Ülviyyə Bəbirli bildirib ki, mükafatı balaca gimnastımıza Xalq artisti, Bakı Xoreoqrafiya Akademiyasının xarici əlaqələr üzrə prorektoru Təranə xanım Muradova təqdim edib.

Mina indiyə qədər dünyanın müxtəlif ölkələrində - Azərbaycan, Macarıstan, Polşa, İtaliya, Rumıniya, Almaniya, Sloveniya, Xorvatiya, Lüksemburq və digər ölkələrdə 42 medal (17 qızıl, 21 gümüş, 4 bürünc) qazanıb.

Onun ən böyük arzusu doğma Azərbaycanı dünya çempionatlarında və Olimpiya Oyunlarında uğurla təmsil etmək, üçrəngli bayrağımızı zirvələrə qaldırmaqdır.

## *Güləş hakimlərimiz üçün növbəti vebinar*

Azərbaycanın güləş hakimlərinin növbəti vebinarı keçirilib. Azərbaycan Güləş Federasiyasının Hakimlər Kollegiyasının sədri Qərib Əliyevin rəhbərliyi altında keçirilən onlayn seminarda əvvəlcə sərbəst və yunan-Roma güləşində passiv hərəkətlər izah olunub. Daha sonra isə ötən vebinarda olduğu kimi, müxtəlif görüşlərdəki mübahisəli epizodların görüntüləri nümayiş etdirilib və həmin epizodlar qarşılıqlı müzakirə əsasında qiymətləndirilib. Bu tip onlayn seminarlar davam etdiriləcək.

Qeyd edək ki, Dünya Güləş Birliyi (UWW) bu il pandemiya ilə bağlı olaraq, çox az sayda beynəlxalq yarış keçirildiyi üçün hakimlərin kateqoriyasında heç bir dəyişiklik etməyəcək.

## Uşu üzrə Bakı çempionatı keçiriləcək

Sentyabrın 12-13-də Hövsan Olimpiya İdman Kompleksində uşunun çinda və sanda növləri üzrə Bakı çempionatı təşkil olunacaq. Yeniyetmələr, gənclər və kişilər arasında keçiriləcək yarışda paytaxtın idman klublarından 150 idmançı medallar uğrunda mübarizə aparacaq.

Qeyd edək ki, yarış Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Uşu Federasiyasının birgə təşkilatçılığı ilə keçiriləcək.

## Komandamız Avropa çempionatında tam heyətlə iştirak edəcək

"Ölkəmizdə sərtləşdirilmiş karantin rejiminin ikinci dəfə yumşaldılmasından sonra Azərbaycanın Olimpiya idman növləri üzrə bəzi milli komandaları kimi cüdoçularımız da açıq havada məşqlərə start veriblər. Operativ Qərargahın qoyduğu tələblərə uyğun olaraq məşqlər açıq



hava şəraitində - Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilir. İdmançılar məşqlərdə əsasən, fiziki təmrinlər üzərində çalışırlar".

Bu sözləri "Olimpiya dünyası" qəzetinə açıqlamasında Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı deyib. Federasiya rəsmisi noyabr ayında Praqada cüdo üzrə böyüklər arasında Avropa çempionatının keçiriləcəyini və bu yarışda Azərbaycan idmançılarının da iştirak edəcəyini bildirib. "Noyabrın 8-10-da Çexiyanın paytaxtı Praqada cüdo üzrə Avropa çempionatı təşkil olunacaq. Bu qitə çempionatı Tokio-2020-yə lisenziya xarakteri daşıyacaq. Buna görə də bu yarış cüdoçularımız üçün həlledici bir sınaqdır. Komandamız qitə çempionatına hazırlığını davam etdirir. Düzdür məşqlər hələlik açıq havada keçirilir. Təlim-məşq toplanışına gəlincə isə bu, Operativ Qərargahın qərarından asılı olacaq. Qapalı məkanlarda məşqlərə icazə verilən gündən zalda hazırlıqlara başlayacağıq. Komandamız karantin rejiminin ikinci dəfə yumşaldılmasından sonra hələ ki, yüngül məşqlərlə kifayətlənir. Bu, əsasən, idmançılarımızın tam formadan düşməməsi üçündür. Yəni hazırda cüdoçularımız fiziki hazırlığa üstünlük verirlər. Karantin tam ləğv olunsa, bütün yığma komandalar, o cümlədən gənclər və yeniyetmələr yenidən öz bazamızda təlim-məşq toplanışına start verəcək", - deyə Elmar Babanlı qeyd edib. Federasiyanın baş katibi Avropa çempionatında komandamızın tam heyətlə mübarizə aparacağını bildirib. "Yarışa hələ bir neçə ay var. Ona görə də əvvəlcədən yarışın keçirilib-keçirilməməsi ilə bağlı hər hansısa bir söz demək olmaz. Yəqin ki, yarışa az müddət qaldıqda bu məsələlərə aydınlıq gələcək. Avropa Cüdo Birliyi bildirir ki, bu, daha çox yarışı keçirəcək ölkədə olan epidemioloji vəziyyətdən asılıdır. Həmin ölkənin hökumət orqanları yarışın keçirilməsinə icazə verəcəksə, onda çempionat təşkil olunacaq. Amma hələ ki, yarışın keçirilməsi böyük sual altındadır. Bununla belə komandamız ehtiyatı əldən vermir, hazırlıqlarını davam etdirir. Avropa çempionatına yollanacaq heyət də təqribi olaraq müəyyən olunub. Komandanın məşqçilər heyəti bu yarışda tam heyətlə iştirak etməyi düşünür. Kişilərin yarışında 7 çəki üzrə 9 nəfərin iştirak etməsinə icazə verilir. Düşünürük ki, bu yarışda komandamızın əsas üzvlərinin hamısı bütün çəki dərəcələrində tam olaraq təmsil olunsunlar. Komandamızın həmçinin qadınların yarışında da da tam heyətlə çıxış edəcəyi gözlənilir. Bu çempionat uzun fasilədən sonra təşkil olunacaq ilk yarış olacaq. Praqa sınağı Olimpiya ərəfəsində idmançıların hazırlıq səviyyəsinin yoxlanılması və lisenziya xallarının qazanılması üçün çox əhəmiyyətlidir. Bundan başqa payızda MDB Oyunlarının da keçiriləcəyi gözlənilirdi. Bildiyiniz kimi, bu yarışın proqramına cüdo idman növü də daxildir. Amma MDB Oyunları 2021-ci ilə təxirə salındığına görə həmin yarışlara hazırlıq prosesi müvəqqəti olaraq dayandırılıb", - deyə Elmar Babanlı qeyd edib.

*Azər Əlizadə*



## Fərid Mansurov: "Pandemiya qaydalarını gözləməklə, məşqləri davam etdirmək olar"

***"Gənclər və İdman Nazirliyi olaraq Operativ Qərargaha bir neçə dəfə yarışların keçirilməsi ilə bağlı təkliflər göndərmişik. Hələ ki, açıq havada yarışların və məşqlərin keçirilməsinə icazə verilib".***

***Bu sözləri Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Fərid Mansurov nazirliyin "Facebook" səhifəsinə idman zallarının açılması ilə bağlı suallara cavab verərkən deyib.***

O bildirib ki, hər bir bağlı məkanı hansısa qaydalarla açmaq mümkündür. F.Mansurovun fikrincə, bu zaman hər bir idman növündə pandemiya qaydalarını qorumaq lazımdır: "Hazırda açıq havada sosial məsafə saxlanılmaqla məşq etmək olar. Amma gələn aydan havalar soyumağa başlayacağı üçün açıq havada məşqlər çətinləşəcək. Biz Operativ Qərargaha müraciət edərək bununla bağlı təkliflərimizi veririk. Əsas məsələ ondan ibarətdir ki, kütləvi toplaşmalar olmasın. Pandemiyanın yayılması çox sürətlidir. Bu səbəbdən, fikirləşirik ki, hər kəs bir ailədən və evdən gəlir. Ola bilər ki, evdə risk qrupuna aid yaşlı insanlar olsun. İdmançılar həmişə sağlam və gümrah, güclü imunitetə malik olurlar. Məşq edəndə immunitet düşür. Həmin xəstəliyə yoluxub, öz doğmalarını xəstələndirə bilərlər. Bu baxımdan, zallar təhlükəlidir. Müəyyən pandemiya qaydalarını gözləməklə, məşqləri davam etdirmək olar. Məşqlərin açıq havada keçirilməsi daha səmərəli və faydalıdır. Havalar hələ ki, yaxşı keçir. Federasiyalara, əsasən də qeyri-Olimpiya növləri üzrə fəaliyyət göstərən qurumlara müraciət etmişik ki, nazirliyin balansında olan Olimpiya İdman komplekslərinin və idman zallarının açıq ərazidəki qurğularında məşq keçsinlər. Artıq kikboksinq, hapki-do, kyukuşin karate federasiyalarından müraciətlər almışıq. Məşqlərin üst-üstə düşməməsi üçün onlar da cədvəl tutmalı və nazirliyə təqdim etməlidirlər. Bunun əsasında qrafik tərtib olunacaq. Məşqlər zamanı idmançılar komplekslərin və zalların soyunub-geyinmə otaqlarından, eləcə də duş kabinələrindən istifadə edə biləcəklər".

F.Mansurov həmçinin qeyd edib ki, məşqçi həm də bir pedaqoq kimi idmançının tərbiyəsi ilə də məşğul olmalıdır. Onun vəzifəsi idmançı ilə yalnız məşqlər keçmək deyil. O, həm də idmançını zərərli vərdişlərdən uzaqlaşdırmalı, onların hərtərəfli və sağlam yetişməsinə çalışmalıdır. "Gənclər və İdman Nazirliyi idmançılara hər zaman diqqət və qayğı göstərir. Federasiyalar da nazirliklə bu sahədə paralel fəaliyyət göstərməlidir. Nazirlik təlim-məşq toplanışları təşkil edir, idmançıları yarışlara ezam edir. Nəzərə almaq lazımdır ki, idmançı hər gün federasiyada məşqçilərin gözü qarşısındadır. Federasiyanın qarşısında duran əsas hədəflərdən biri də idmançıları daim diqqətdə saxlamaq, onların ustalıqlarını artırmaqla yanaşı, cəmiyyət üçün sağlam və vətənpərvər insan kimi formalaşdırmaqdır", - deyə F.Mansurov qeyd edib.

Fərid Mansurov nazirliyin "Facebook"dakı rəsmi səhifəsində canlı bağlantı zamanı həmçinin bildirib ki, UGİM-in nəticələri, məşqçilərin uğurları, idmançıların nailiyyətləri hər il təhlil edilir. Beynəlxalq arenada keçirilən yarışlarda UGİM-in yetirmələri hər il bir sıra uğurlara imza atırlar. "Uşaq-Gənclər İdman məktəbləri (UGİM) idmanın əsas özəyini təşkil edən, dövlət tərəfindən maliyyələşdirilən təhsil müəssisələridir. Onlar həm Gənclər və İdman, həm Təhsil nazirliklərinin, həm də həmkarlar ittifaqının nəzdində fəaliyyət göstəririlər. Hər il UGİM-in inventarla təmin edilməsi diqqət mərkəzindədir. Bu sistem sovet dönəmindən qalıb. Təbii ki, biz yeni modullar üzərində işləyirik. Avropada belə məktəblər yoxdur, onlar klub şəklində fəaliyyət göstərirlər. Çalışırıq ki, UGİM-in əsasnaməsini bu yaxınlarda yenidən işləyək. İnanıram ki, bu sahədə dirçəliş baş verəcək", - deyə Olimpiya çempionu bildirib.

## Triatlonçularımız beynəlxalq turnirdə fərqləndilər

Triatlon üzrə Azərbaycan millisi koronavirus pandemiyası ilə bağlı məcburi fasilədən sonra növbəti yarışda gücünü sınayıb. Yığmamızın üzvləri Rostislav Pevtsov və Kseniya Levkovskaya Kiyevdə keçirilən nüfuzlu "Triatman İron" turnirində çıxış ediblər. Təmsilçilərimiz 1,9 kilometr üzgüçülük, 90 kilometr velosiqment və 21,1 kilometr qaçışın daxil edildiyi bütün məsafəni uğurla keçiblər. Bütün rəqiblərini qabaqlayan Azərbaycan təmsilçiləri yarışın qalibi olublar.





## İlham Zəkiyev haqqında sənədli film hazırlanıb

Əməkdar idman ustası, ikiqat Paralimpiya və dünya çempionu, Qarabağ müharibəsi veteranı İlham Zəkiyev haqqında sənədli film çəkilib. Film Azərbaycan Televiziyasının Bədii və Sənədli Filmlər Studiyası tərəfindən ərsəyə gətirilib. Qarabağ müharibəsində sağlamlığını itirmiş idmançının həyat yolundan bəhs edən "Qaranlığın rəngləri" filmi həm də dünya işığından məhrum olmuş insanın daxili iradəsinin gücünü əks etdirir. Filmin süjet xətti qəhrəmanın daxili monoloqu üzərində qurulub.

Filmin rejissoru Rövşən Nicat, prodüseri, Xalq artisti Ramiz Həsənoğludur. "Qaranlığın rəngləri" filmi Rövşən Nicat ilə Fikrət Adıgözəllinin birgə ssenarisi əsasında çəkilib. Sənədli film avqustun 29-da İdman Azərbaycan kanalında yayımlanıb.

## Azərbaycanlı rəssam məşhur idmançının sifarişi əsasında portretini yaradıb

Azərbaycanlı rəssam, UNESCO-nun Rəssamlar Birliyinin fəxri üzvü Nizar Məmmədov qarışıq döyüşlər üzrə dünyaca məşhur irlandiyalı idmançı Konor Makqreqorun portretinin çəkilməsi sifarişini yerinə yetirib.

Bu barədə rəssamın Instagram səhifəsində məlumat yerləşdirilib. İdmançı rəssama onun portretini çəkməsini sifariş edib. N.Məmmədovun əl işi təkcə döyüşçünün pərəstişkarlarının deyil, Makqreqorun özünün də ürəyincə olub. Portret tezliklə idmançıya təhvil veriləcək. Nizar Məmmədov dünyaca məşhur azərbaycanlı rəssam Sakit Məmmədovun oğludur. O, 2004-2008-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında təhsil alıb. Əsərləri bir çox xarici ölkələrdə təşkil olunan sərgilərdə nümayiş etdirilib. Nizar Məmmədov dəfələrlə Avropada iri art-festivallarda iştirak edib.



Konor Makqreqor boksda və qarışıq döyüş növlərində çıxış etmiş irlandiyalı idmançıdır. O, UFC-də yüngül çəki dərəcəsində çıxış edirdi. Bir müddət öncə professional karyerasını başa vurduğunu açıqlayıb.



## Karatenin inkişafı məsələləri müzakirə olunub

Avropa Karate Federasiyasının (EKF) ikinci virtual görüşündə koronavirus pandemiyası şəraitində karatenin inkişafı məsələləri müzakirə olunub. EKF-in prezidenti Antonio Espinosun rəhbərlik etdiyi videokonfransda qitənin 30-dək milli federasiyasının prezidenti iştirak edib. Digər qitə federasiyaları ilə görüş isə ikinci hissədə baş tutub.

Azərbaycan Milli Karate Federasiyasının prezidenti və EKF-in idarə heyətinin üzvü Yaşar Bəşirov çıxışında milli federasiyanın bu dövrdə virtual fəaliyyətindən və idmançılarımızın hərtərəfli dəstəkləndiyindən söz açıb. Görüşün sonunda A.Espinos bu çətin günlərdə milli federasiyaların işlərini yüksək qiymətləndirib.

Videokonfransda yarışların keçirilməsinin mümkün variantları müzakirə olunub, birgə səylər nəticəsində qarşıdakı aylarda həyatın öz axarına düşəcəyinə və turnirlərin bərpa ediləcəyinə inam ifadə olunub.

Müsahibə



# “Tokio Yay Olimpiya Oyunlarının təxirə salınması təsadüfdən irəli gələn zərurətdir”

***Bu il Tokioda keçirilməsi nəzərdə tutulan Yay Olimpiya Oyunları məlum vəziyyətə görə, təxirə salındı. COVİD-19 virusu həyəcanla gözlədiyimiz ən böyük idman tədbirinin də keçirilməsinə mane oldu. Bununla da yüzlərlə idmançının çempionluq arzusu bu il həyata keçmədi. Planetin ən böyük idman bayramının növbəti ildə keçirilməsi qərara alındı.***

Virus səbəbindən idman yarışları və azarkeş dəstəyi böyük təsirə məruz qaldı. Bütün dünyada olduğu kimi, ölkəmizdə yoluxma səbəbindən idmanda sükut yarandı. Lakin nəzərə almalıyıq ki, insanların sağlamlığı ən əsas amildir. Bütün bu məsələləri müzakirə etmək üçün “Olimpiya dünyası” qəzeti ölkənin ən təcrübəli mütəxəssisləri ilə əlaqə saxlayıb, onların fikirlərini öyrənir. Belə mütəxəssislərdən biri də Azərbaycan Ağır Atletika Federasiyası (AAAF) İctimai Birliyinin baş katibi Rizvan Rəsulovdur. Hər zaman hadisələrə özünəməxsus yanaşması ilə fərqlənən müsahibimiz bizi maraqlandıran suallara aydınlıq gətirdi.

***- Rizvan müəllim, bir mütəxəssis və bir qurum rəsmisi kimi hazırda yaşadığımız dövrü necə xarakterizə edərdiniz? COVİD-19 virusunun daha çox təsir etdiyi sahələrdən biri də idman oldu. Bu fikirlə razılaşırsınız?***

- Hazırda COVİD-19 (koronavirus) pandemiyası insanlara və onların yaşadıqları dövlətlərin iqtisadiyyatına ciddi ziyan vurmaqdadır. İqtisadiyyat ciddi zərbə aldıqca, ondan asılı olan bir çox sahələrdə də geriləmələr baş verir. Bu baxımdan idman sahəsi də istisna deyil. Məlum olmayan vaxta qədər yaşamağa məcbur olduğumuz bu pandemiya dövrü bizi ciddi addımlar atmağa sövq etməlidir. Fəaliyyət göstərdiyimiz bədən tərbiyəsi və idman sahəsinə pandemiyanın daha ciddi ziyan vurmasına imkan verilməməlidir. İdman növlərinin fəaliyyətlərinin tam bərpası üçün yeni metod və vasitələrin tətbiq olunmasına ehtiyac duyulmaqdadır.

Bunlardan bir neçəsini qeyd etmək olar:

- Qapalı idman komplekslərində təlim-məşq prosesləri keçəcək idmançıların və digər personalların sağlamlığının qorunmasının təşkili ilə bağlı sanitar-gigiyena məsələlərinə dair təlimatların hazırlanması;
- İdmançıların sosial məsafə saxlamaları üçün idman zallarının buraxılma qabiliyyətlərinə müvafiq olaraq, məşğul olanların sayının tənzimlənməsi;
- Təlim-məşq proseslərinə uyğun olaraq idman qurğularında həkim və digər tibbi personalların fəaliyyətinin gücləndirilməsi;
- İdmançının özü-özünə nəzarət etməsi kimi məlum vasitədən istifadə olunmasının təşkili və s.

Təklif olunan məsələlər əsasən də ölkəmizdə fəaliyyət göstərən Uşaq-Gənclər İdman Məktəblərinin (UGİM) ümumi sisteminə aid olmalıdır. Çünki hazırkı vaxtda UGİM-i idman sahəsində kütləviliyi təmin edən əsas idman müəssisələrindən biri sayılırlar. İdman növləri üzrə yığma komandaların təlim-məşq toplanışlarında da bu və ya digər profilaktik vasitələrdən istifadə olunması istisna olmamalıdır.




***- Olimpiya oyunlarının təxirə salınması bütün federasiyaların və idmançıların planlarını dəyişdi. Hər şeyə yenidən başlamaq lazım gələcək. Siz bu barədə nə deyərdiniz?***

- Bilirsiniz, ölkədaxili və beynəlxalq yarışların ləğv olunması, əsasən də Yay Olimpiya Oyunlarının təxirə salınması idman sahəsində ciddi durğunluğun yaranmasına gətirib çıxartdı. Digər tərəfdən idman zallarının bağlanması, təlim-məşq proseslərinin aparılmasına qadağaların tətbiq olunması idman ictimaiyyətini çətin vəziyyətə saldı. Lakin yaranmış vəziyyətə baxmayaraq həyətyanı sahəsi olan evlərdə yaşayan idmançılar qismən də olsa, şəxsi idman formalarını saxlamağa çalışırlar.

***- Koronavirusun mənfi tərəflərini bildik, sizcə müsbət tərəfləri də oldumu?***



- Əlbəttə ki, mənfi tərəfləri kifayət qədərdir. Çıxılmaz vəziyyətdə idman formasını saxlamaqdan ötrü yuxarıda qeyd etdiyim şəraitdə fərdi formada məşqlərini davam etdirən idmançıların və onlara nəzarət edən məşqçilərin distant formadan istifadəsini müsbət hal kimi qeyd etmək istərdim. Lakin ağırlıqqaldırma və digər idman növlərində canlı ünsiyyəti əsas qəbul edirəm.

***- Bütün dünyada tədbirlərin əksəriyyəti onlayn keçirilir. Ölkəmizdə də bu kimi işlər davam etdirilir. AAAF-da bu tədbirlərdə iştirak edirmi?***

- Bəli. Cari ilin 28-29 avqust tarixində “Uzbekistan Online Cup 2020” beynəlxalq ağırlıqqaldırma turniri keçirildi. Bu yarışda bizim 1 kişi və 3 qadın idmançımız çıxış etdi. Pandemiya dövründə bu bizim ilk onlayn yarışımız oldu.



***- Federasiya idmançıları bu dövrdə də diqqətdə saxlayırmı?***

- Bildiyiniz kimi, yaranmış vəziyyət ilə əlaqədar olaraq yaş qrupları üzrə yığma komandaların təlim-məşq toplanışlarının keçirilməsi dayandırılmışdır. Aprel ayından başlayaraq həyət evlərində məşq etmək imkanı olan bir çox idmançılara federasiya tərəfindən idman avadanlıqları paylanılıb.

***- Postpandemiya dövründə idmanda yeniliklər gözlənilirmi?***

- Bilirsiniz, bəzi ölkələrdə distant məşq sistemindən postpandemiya dövründən öncə də istifadə olunurdu. Həmin vaxt distant məşq sistemi - hər hansı bir tanınmış məşqçi və ya məcburiyyətdən məşq yerində olmayan məşqçi tərəfindən idmançının məşq prosesini onlayn izləməsi və verilən tamrinlərin icrasında korrektə işlərinin aparılması üçün təşkil olunan bir proses kimi qəbul edilirdi. Bunu eyni məkanda olmaq məcburiyyətini aradan qaldıran bir vasitə kimi də qəbul etmək olar. Lakin kiçik yaşlı idmançıların hazırlanmasında distant məşq sisteminin əhəmiyyətsiz olduğunu hesab edirəm. Burada kiçik yaşlarından idmançının fiziki, texniki və psixoloji cəhətdən hazırlanmasında məşqçi-müəllim və idmançı bağlılığını, yəni canlı ünsiyyəti əsas qəbul edirəm.

***- Yenidən qayıdaq Olimpiya oyunları mövzusuna. Azarkeşsiz Olimpiya oyunlarını təsəvvür etmək olar?***

- 2021-ci ildə nəzərdə tutulan Tokio Yay Olimpiya Oyunlarının azarkeşsiz keçirilməsi insan tarixində ilk olduğundan qeyri-adi bir xarakter daşıyacağını təsəvvür edirəm. Lakin Tokio-2020 Yay Olimpiya Oyunlarının bu formatda keçirilməsinin əhəmiyyətini tarix göstərəcəkdir.

***- Tokio tarixdə üçüncü dəfədir ki, Olimpiya oyunlarına ev sahibliyi etməkdə problemlə üzləşir. Bu təsadüfdür, yoxsa...***

- XX əsrdə iki dünya müharibəsinin baş verməsini nəzərə alsaq, başa düşmək olar ki, dünyanı yenidən ideoloji qütblərə bölüşdürərək, hökmranlıq etmək istəyən güclü dövlətlər olduqca israrlı idilər. Bu baxımdan Tokio Yay və Qış Olimpiya Oyunlarının ləgv olunması və indiki pandemiya vaxtında Tokio Yay Olimpiya Oyunlarının təxirə salınması təsadüfdən irəli gələn zərurətdir.

***- Rizvan müəllim, sonda oxucularımıza nə demək istəyirsiniz?***

- Səbirli olmaq və qazandığımız uğurları əldə saxlayaraq, inkişaf etdirməyi arzulayıram.

*Anar Əhmədov*

## Sentyabrda AMADA-nın üç vebinarı təşkil olunacaq

Sentyabrda Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) təşkilatçılığı ilə üç vebinar təşkil olunacaq. Sentyabrın 17-də keçiriləcək vebinarda gənc idmançılara antidopinq dəyərləri haqqında məlumat veriləcək. Ayın 24-də həkimlər üçün təşkil olunacaq vebinarda COVID-19 haqqında fikir mübadiləsi aparılacaq. Sentyabrın 26-da keçiriləcək sonuncu vebinar dopinq nəzarəti inspektorları üçün nəzərdə tutulub.

## Kamandan oxatma üzrə “Birlik kuboku” açıq yarışı keçirilib

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) təşkilatçılığı ilə Bakı Olimpiya İdman Kompleksində Paralimpiya və Olimpiyaçı idmançıların iştirakı ilə kamandan oxatma növü üzrə “Birlik kuboku” açıq yarışı keçirilib. Yarışda komitənin prezidenti İlqar Rəhimov, baş katib Kamal Məmmədov, idman şöbəsinin müdiri, eyni zamanda, Tokio-2020 Yay Paralimpiya Oyunlarında ölkəmizi təmsil edəcək milli komandanın şef-de-missionu Rauf Mürsəlov, Azərbaycan Kamandan Oxatma Federasiyasının nümayəndələri iştirak ediblər. Gənclər və İdman Nazirliyinin tövsiyəsi ilə yarış açıq hava şəraitində keçirilib. Kubok yarışlarında 20 idmançı mübarizə aparıb.



Qeyd edək ki, “Birlik kuboku” COVID-19 koronavirus pandemiyası ilə əlaqədar ölkədə tətbiq edilmiş sərt karantin rejimindən sonra paralimpiyaçıların iştirakı ilə keçirilən ilk yarışdır. Turnir Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına riayət edilməsi üçün yaradılmış xüsusi işçi qrupunun nəzarəti altında keçirilib.

## “Könüllülər ili” çərçivəsində şahmat turniri

“Könüllülər ili” çərçivəsində Nərimanov rayonunda açıq havada şahmat turniri keçirilib. Turnirin açılış mərasimində çıxış edən Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov, “Ağ Top” şahmat klubunun direktoru Cavanşir Bağırov, şəhid Mahir Mirzəyevin atası Sabir Mirzəyev Azərbaycanda “Könüllülər ili” çərçivəsində bir sıra tədbirlərin keçirildiyini qeyd ediblər. Bildirilib ki, könüllülər ölkədə pandemiyaya qarşı mübarizədə hökumət qurumlarına dəstək fəaliyyəti həyata keçirib, müxtəlif şəhərlərdə maarifləndirmə işlərində yaxından iştirak ediblər. Turnirdən əvvəl bütün yarış iştirakçıları bədən hərarətini ölçən xüsusi cihazla yoxlamadan keçiblər. İştirakçılara pandemiya ilə əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargahın sosial izolyasiya qaydaları haqqında və öncədən müəyyənləşdirilmiş qaydalara əməl olunması barədə ətraflı məlumat verilib.

On iki könüllü şahmatçının iştirak etdiyi yarışın qalibləri mükafatlandırılıblar.

# Latviyada yaşayan həmyerlimiz dünya çempionu oldu

Latviyanın paytaxtı Riqa şəhərində tay boksu üzrə Beynəlxalq Federasiyanın (WKN) LNK Fight Night 16 şousu çərçivəsində keçirdiyi dünya çempionatında həmyerlimiz Zaur Cavadov qalib gəlib.

“Studio 69” klubunun arenasında baş tutan həlledici döyüşdə Azərbaycan əsilli Latviya kikboksçusu Zaur Cavadov Slovakiyanın WKN üzrə çempionu Sebastyan Fapso ilə qarşılaşıb. O, rəqibinin üzərində qələbə qazanaraq, dünya çempionu tituluna layiq görülüb. Bununla da Zaur döyüş siyahısına 39-cu qələbənin yazılmasına nail olub ki, bunların da 14-ü ardıcıl olaraq qazanılıb.



Qeyd edək ki, Zaur Cavadov 21 dekabr 1986-cı ildə Latviyanın Riqa şəhərində dünyaya gəlib. 4 yaşından idmanın karate növünə yönəldilib. 2005-ci ildən etibarən peşəkarcasına kikboksinqlə məşğul olaraq, dəfələrlə bu idman növünün WAKO K-1, WKA K-1 və digər versiyaları üzrə Latviya, Litva, Polşa və Avropa çempionu titullarını qazanıb.

2017-ci ildə "Arena Riqa”da “KOK World Grand Prix in Riga 2017” döyüş şousu zamanı Moldovadan olan rəqibi Sergey Morari ilə qarşılaşıb. Həmyerlimiz ona nokautla qalib gələrək, dünya çempionu titulunu əlindən alıb.

Şahmat



# Qrossmeysterimiz ilk onluqda yer aldı

Beynəlxalq Şahmat Federasiyası (FİDE) yeni reytinq siyahısını açıqlayıb. İlk “10-luq”da Azərbaycanın bir təmsilçisi yer alıb. Dünya Kubokunun qalibi Teymur Rəcəbov 9-cu pillədəki yerini qoruyub. Onun aktivində 2765 xal var. Şəhriyar Məmmədyarov isə 2764 xalla 11-ci yerdə qalıb. Qədir Hüseynov bir pillə irəliləyərək 2665 xalla 71-ci olub. Nicat Abbasov da bir pillə irəliləyib və 73-cü sırada qərarlaşıb. 2654 xalı olan Rauf Məmmədov isə 90-93-cü yerləri bölüşür. Siyahıya yenə norveçli dünya çempionu Maqnus Karlsen 2863 xalla başçılıq edir. ABŞ təmsilçisi Fabiano Karuana 2835 xalla 2-ci, çinli Dinq Liren 2791 xalla 3-cüdür.

Qadınlardan Günay Məmmədzadə 2443 xalla 29-cu pillədəki mövqeyini qoruyub. 2382 xala malik Gülnar Məmmədova 75-ci yerdə qalıb. 2376 xalı olan Xanım Balacayeva isə yenə 85-cidir.

# Olimpiadanın qalibi iki komanda oldu

Ümumdünya Şahmat Olimpiadasının final oyunları keçirilib. Finalda mübarizə aparan Rusiya və Hindistan komandaları birinci turu heç-heçə başa vurublar. İkinci turda internetdə problem yarandığı üçün Hindistanın iki şahmatçısı oyununu davam etdirə bilməyib. Apelyasiya komissiyası “Chess.com”un verdiyi bütün dəlilləri və internetdən ayrılma ilə bağlı digər mənbələrdən toplanan məlumatları nəzərdən keçirib. Qərara alınıb ki, hər iki komanda qalib elan olunsun. Beləliklə, həm Rusiya, həm də Hindistan komandası birinci yerə layiq görülüblər. Qeyd




edək ki, Azərbaycan komandası dörddəbir final oyunlarında Polşa komandasına məğlub olaraq olimpiadada çıxışını dayandırıb.

Xatırladaq ki, Ümumdünya Şahmat Olimpiadası ilk dəfə 1927-ci ildə Londonda keçirilib. Yarış 1950-ci ildən başlayaraq iki ildən bir təşkil olunur. Azərbaycan 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadasına ev sahibliyi edib. Sonuncu - 43-cü Olimpiada Batumidə təşkil olunub.

# Zəka sahiblərimizdən qələbə

Azərbaycan və Monqolustan şahmatçıları arasında yoldaşlıq görüşü keçirilib.

Heyətində Xəzər Babazadə, Atilla Eynullayev, Vüqar Manafov, Altay Eynullayev, Şiroğlan Talıbov, Süleyman Süleymanlı, Fərid Orucov, Cahandar Azadəliyev, Ayan Allahverdiyeva, Mələk İsmayılın yer aldığı Azərbaycan komandası 246:177 hesabı ilə Monqolustan şahmatçılarını məğlub edib.

Blits üzrə keçirilən turnirdə 16 yaşadək şahmatçılar iştirak ediblər. Yarış “Lichess.org” platforması vasitəsilə keçirilib.

# Fiziki məhdudiyyətli şahmatçılar üçün olimpiada

Beynəlxalq Şahmat Federasiyası (FİDE) fiziki məhdudiyyətli şahmatçılar arasında onlayn olimpiada təşkil edəcək. Yarış noyabrın 20-dən dekabrın 3-dək keçiriləcək. Turnir iki mərhələdən ibarət olacaq. İsveçrə sistemi üzrə keçiriləcək ilk mərhələdə oyunlar 7 turdan ibarət olacaq. Ən yaxşı 4 komanda yarımfinala vəsiqə qazanacaq. İlk iki komanda finalda, digər ikisi isə üçüncü yer uğrunda mübarizə aparacaq.

Qarabağ idmanı

# Şuşanın ilk “Metodist müəllim”i

Əgər müəllim ancaq işini sevirsə, o yaxşı müəllim olacaq. Əgər müəllim bir ata, bir ana kimi şagirdi sevirsə, o bütün kitabları oxuyan, lakin nə işini, nə də şagirdləri sevməyən müəllimdən yaxşı müəllim olacaq. Əgər müəllim işinə və şagirdlərə olan məhəbbətini özündə birləşdirirsə, o, kamil müəllimdir. Bu sözlər dahi rus yazıçısı Lev Tolstoya məxsusdur. “Olimpiya dünyası” qəzeti bu sayında “Qarabağ idmanı” rubrikası adı altında kamil bir müəllimdən bəhs edən yazını oxucularına təqdim edir. Uzun illərdən bəri idmanda topladığı təcrübəni öz tələbələri bölüşən, onların fiziki və mənəvi tərbiyəsində mühüm rol oynayan pedaqoqlardan olan Tariyel müəllimi yaxından tanıyaq.



Tariyel Ağa oğlu Kazımov 1939-cu il avqust ayının 23-də Şuşa şəhərində ziyalı ailəsində anadan olub. 1946-1956-cı illərdə Şuşa şəhər 1 nömrəli orta məktəbində təhsil alıb.

Tariyel Kazımov 1957-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olur və 1961-ci ildə həmin institutun pedaqoji fakültəsini “İdman oyunları” ixtisası üzrə tam kurs bitirib. O, təyinatını Şuşaya salaraq, bütün həyatını idman işinə həsr etməyi qərara almışdır.

İlk pedaqoji fəaliyyətinə Şuşa şəhər 1 nömrəli orta-internat məktəbində başlayıb. 1963-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin Sənaye Komsomol Komitəsinin katibi vəzifəsinə təyin edilib. Qayğıkeş müəllim, öz peşəsinin vurğunu olan Tariyel Kazımov bir ildən sonra ailə vəziyyəti ilə əlaqədar olaraq yenidən öz kollektivinə qayıdıb. Müəllimlik sahəsində dərin bilik əldə etmək arzusu, təcrübəsini təkmilləşdirmək istəyi onu şəhərin ən qabaqcıl məktəbinə gətirib çıxardıb. Tariyel müəllim şəhər 4 nömrəli orta məktəbində 1967-ci tədris ilindən 1992-ci ilin may ayına qədər bədən tərbiyəsi müəllimi kimi fəaliyyət göstərib. O, bu illər ərzində məktəbdə fiziki tərbiyə prosesinin yenidən qurulması, məktəbdə bu sahədə yığılıb qalmış problemlərin tez bir vaxtda aradan qaldırılmasına nail olur. Tariyel müəllim bilirdi ki, gənc nəslin fiziki tərbiyəsi, onların sağlamlığı məktəb illərindən başlayır. Məktəbdə bütün bu işlər müəllimin işindən və peşəsinin nə səviyyədə qurulmasından asılıdır.

Belə bir məqamda qarşıya belə bir sual çıxır ki, görəsən hamı bədən tərbiyəsi müəllimi ola bilərmi? Cavab belədir: “Kim ki, məktəblilərin tərbiyəsi, sağlamlığı, gümrahlığı barədə düşünür, məktəbsiz, uşaq aləmindən kənarda dayana bilmir, öz həyatının mənasını yeni sağlam nəslin inkişafında görürsə, məhz o, bədən tərbiyəsi müəllimi ola bilər. Tariyel müəllim məhz bu cür xüsusiyyətlərə malik olan müəllimdir. Tariyel Kazımov müəllimlik fəaliyyəti dövründə şagirdlərdə idmana marağın aşılanmasına vasitəçi olub. Bütün bu keyfiyyətlərinə görə, Tariyel müəllim Şuşada ilk “Metodist müəllim” adına layiq görülüb. Tariyel müəllim eləcə də, 1991-ci il avqustun 9-da “Azərbaycan SSR Bədən Tərbiyəsi və İdman əlaçısı” döş nişanı ilə təltif edilib.

Tariyel Kazımov məktəb illərində idmançı kimi də ,öz sözünü deyib. O oxuduğu məktəbin idman şərəfini futbol, voleybol, güləş və atletika idman növləri üzrə yarışlarda dəfələrlə qoruyub.

Oxuduğu məktəbin yığma komandası tərkibində bir sıra mötəbər yarışlarda nailiyyətlər qazanıb. O, tanınmış güləşçi İsmayıl İsmayılovun rəhbərliyi altında Şuşada 1954-cü ildə təşkil edilmiş güləş üzrə bölmə məşqlərində iştirak edənlərdən biri olub. Eyni zamanda şəhərdə təşkil edilmiş yarışlarda 62 kq çəki dərəcəsində dəfələrlə fərqlənib.

İstedadlı güləşçi Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olarkən, bu idman növündən qəbul imtahanı verir və yüksək qiymət alıb. Lakin Tariyelin bəxti gətirməyib. Dördqat SSRİ çempionu, Dünya Tələbə Oyunlarının ikiqat çempionu Musa Babayevin keçirdiyi idman bölmə məşqlərinin birində Tariyel onurğa sütunundan ağır zədə alıb. Zədəsi ciddi olduğundan o, məcburiyyət qarşısında qalaraq sevimli güləş idman növü ilə məşğul ola bilməyib. Tariyel Kazımov güləş ixtisasını birinci kursdan idman oyunları ilə əvəz etməli olub. Ümumiyyətlə, Tariyel Kazımov öz əməksevərliyi və bacarığı ilə həmişə özünə böyük nüfuz qazanıb.

Ötən ay 50 illik pedaqoji staja malik olan Tariyel müəllim ömrünün 81-ci baharına qədəm qoyub. 4 övladı, 6 nəvəsi olan Tariyel müəllim məlum hadisələrlə əlaqədar olaraq Bakı şəhərində məcburi köçkün kimi məskunlaşıb və səbirsizliklə doğma Şuşaya qayıdacağı günü gözləyir. Ona cansağlığı və uzun ömür arzulayırıq!

*Əbülqasım Novruzov,*
*Şuşa Uşaq Gənclər İdman-Şahmat Məktəbinin direktoru*



# Qəbələdə keçirilən turnirdə qaliblər müəyyənləşdi

Qəbələ Olimpiya İdman Kompleksində keçirilən və Tovuz istiqamətində gedən döyüşlərdə şəhid olmuş zabit və əsgərlərimizin əziz xatirəsinə həsr edilən uşu üzrə açıq turnirə yekun vurulub. Gənclər və İdman Nazirliyinin, Azərbaycan Uşu Federasiyasının birgə təşəbbüsü ilə təşkil edilən turnirə 200-yə yaxın yeniyetmə və gənc idmançı qatılıb. Yarışda “Arktika” klubunun idmançıları bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. “Məhəmmədi Anar” klubu ikinci, Göyçay komandası isə üçüncü pillədə qərarlaşıblar. Turnirdə Bakı, Gəncə, Samux, Göyçay, Ucar, Bərdə və Şəki komandaları iştirak ediblər.

# *Kapoeyraçılarımız beynəlxalq onlayn turnirə hazırlaşırlar*



Oktyabrda kapoeyra üzrə beynəlxalq onlayn turnir keçiriləcək. Yarışda 18 yaşadək idmançılar güclərini sınayacaqlar. Turnir Ümumdünya Kapoeyra Federasiyasının təşkilatçılığı ilə baş tutacaq. Millimiz yarışa kiçik yaşlı idmançılardan ibarət yığmanın məşqçiləri Fərid Səlimov və Fərid Allahverdiyevin rəhbərliyi altında hazırlaşır.

Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təsdiq olunmuş karantin qaydalarına uyğun keçirilən hazırlıq prosesi ara məsafəsi gözlənilməklə açıq havada təşkil olunur.

Qeyd edək ki, turnirdə müxtəlif ölkələrdən idmançılar güclərini sınayacaqlar və onlayn platforma üzərindən mübarizə aparacaqlar. Atletlər yarışda iştirak üçün idmançı pasportları vasitəsilə qeydiyyatdan keçirlər və şəxsi hesablarını yaradırlar. Turnirdə iştirak hüququ qazanan idmançılar solo performans videolarını həmin hesablarına yükləyirlər. Platforma avtomatik olaraq rəqibləri seçəcək və yarış mərhələlər üzrə davam edəcək. Hər yeni mərhələdə videolar yenilənəcək. Videolar Ümumdünya Kapoeyra Federasiyasının xüsusi qaydaları əsasında çəkilir.




# Avropa çempionatı təxirə salındı

Moskvada bu il keçirilməsi nəzərdə tutulan ağırlıqqaldırma üzrə Avropa çempionatı 2021-ci ilə təxirə salınıb. Bu barədə Avropa Ağırlıqqaldırma Federasiyasının (EWF) birinci vitse-prezidenti Serqey Sırtsov məlumat verib. Qeyd edək ki, qitə çempionatının bu ilin aprelində keçirilməsi nəzərdə tutulmuşdu. Ancaq koronavirus pandemiyası səbəbindən oktyabrın sonu - noyabrın əvvəlinə təxirə salınmışdı.

# Avro-2020 üçün Bakı Könüllülər proqramının qeydiyyat başlayır

Sentyabrın 15-də Avro-2020 üçün Bakı Könüllülər proqramının yeni qeydiyyat mərhələsinə start veri-




ləcək. Qeydiyyat onlayn formada UEFA Fame sistemində olacaq. Qeydiyyat üçün ötən illərdə könüllülük üçün müraciət etməyən şəxslər müraciət edə bilərlər.

Daha əvvəl Avro-2020 Bakı üçün müraciət etmiş və müsahibə mərhələsində iştirak edən könüllülərin yenidən müraciət etmələrinə ehtiyac yoxdur.

# Brilyant Liqanın daha bir mərhələsi ləğv edildi

Çinin Şanxay şəhərində keçirilməsi planlaşdırılan atletika üzrə Brilyant Liqanın növbəti mərhələsi 2021-ci ilə təxirə salınıb. Bu barədə Beynəlxalq Atletika Federasiyaları Assosiasiyasının mətbuat xidməti məlumat yayıb. Şanxayda Brilyant Liqanın mərhələ yarışı oktyabrın 17-də baş tutmalı idi. Ümumilikdə bu il Brilyant Liqanın yeddi mərhələsi ləğv edilib.

**Bizim müsahibə**

*Azərbaycan dünyada idman ölkəsi kimi tanınır və bu sahənin inkişafına dövlət səviyyəsində böyük dəstək göstərilir. Bu dəstək həm də ədalətli və təmiz idmanın təşviqini özündə ehtiva edir. 2016-cı ildə Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) təsis edilməsi də məhz bu məqsədi daşıyır. Agentliyin yaranması ilə Azərbaycanda Ümumdünya Antidopinq Məcəlləsinə və beynəlxalq standartlara uyğun Milli Antidopinq Proqramı tətbiq edilir. Milli Antidopinq Proqramına ilk növbədə, yarışma müddəti və yarışmadan kənar müddətdə dopinq nəzarəti testlərinin keçirilməsi və ictimaiyyət, xüsusilə də idman ictimaiyyəti arasında idmanda dopinqlə mübarizə məqsədilə maarifləndirmə işlərinin aparılması daxildir. Bu işlər fasiləsiz, hər il daha da genişləndirilərək həyata keçirilir. Görülən işlərdən və həyata keçirilən layihələrdən daha ətraflı məlumat almaq üçün AMADA-nın baş direktoru Şəfəq Hüseynli ilə əlaqə saxlayıb, ona bizi maraqlandıran sualları ünvanladıq.*

# Şəfəq Hüseynli: "İdmanın fəlsəfəsində sağlamlıq dayanır"



***- Şəfəq xanım, AMADA qısa müddət ərzində dünyanın aparıcı Antidopinq Təşkilatlarından birinə çevrilib. Bunu gördüyünüz işlərdən, üzv olduğunuz və əməkdaşlıq etdiyiniz təşkilatların quruma göstərdiyi etimaddan açıq-aşkar görmək olar.***

- Bu fikirlə tamamilə razıyam. Əvvəlcə qeyd etmək istəyirəm ki, Antidopinq Proqramının icrasında AMADA müxtəlif qurumlarla, xüsusilə Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və yerli idman federasiyaları ilə əməkdaşlıq edir. Həmçinin, müəyyən qanun pozuntuları üzrə hüquq mühafizə orqanları və digər aidiyyatı dövlət qurumları ilə əlaqəli işlər görülür.

Qısa müddət ərzində AMADA-nın beynəlxalq fəaliyyəti aktivləşdi. Məhz bu fəaliyyətin nəticəsidir ki, AMADA-nın müxtəlif heyət üzvləri Ümumdünya Antidopinq Agentliyində (WADA) Təhsil Komitəsinin,



Milli Antidopinq Təşkilatları üzrə Xüsusi Məşvərət Qrupunun, habelə Avropa Şurasının "İdmançıların ədalət mühakiməsinə maneəsiz çıxışı" üzrə, "İfşaedənlərin müdafiəsi"üzrə Xüsusi İşçi Qruplarının, Avropa Şurasının Hüquq və Təhsil üzrə Məşvərət Qruplarının ekspert qismində üzvləri kimi və Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi ilə iş üzrə Xüsusi Avropa Komitəsinin (CAHAMA) Gender Bərabərliyi üzrə məruzəçisi kimi ekspert qismində seçilmişlər.

Əlavə olaraq, AMADA-nın Dopinq Nəzarəti İnspektorları buyaxınlarda Beynəlxalq Test Agentliyi ilə əməkdaşlığımız çərçivəsində sözügedən təşkilatın Beynəlxalq Dopinq Nəzarəti İnspektorları üçün Təlim-Sertifikat proqramına qoşulublar. İlk mərhələdə dünya üzrə cəmi 8 milli və regional Antidopinq Agentliklərinin qatıldığı proqramın məqsədi beynəlxalq səviyyəli mütəxəssislər hazırlamaqdır və bu proqramı müvəffəqiyyətlə başa vurmuş əməkdaşlarımız Beynəlxalq Dopinq Nəzarəti İnspektoru statusuna layiq görüləcəklər.

Biz bütün bu istiqamətlərdə fəaliyyətimizi davam etdirir və daha da genişləndiririk, çünki bizim əsas məqsədimiz dünyanın aparıcı Antidopinq Təşkilatlarından biri olaraq qalmaqdır.

## "Onlayn formatda keçirdiyimiz tədbirlərin effektini də görürük"

***- Hazırda pandemiya dövründəyik. Koronavirus həyatın bütün sahələrinə, o cümlədən də idmana öz təsirini göstərdi. AMADA-nın işinə pandemiyanın təsiri necə oldu və bu ərəfədə işinizi necə qurdunuz?***

- Bizim, hər il olduğu kimi, 2020-ci ildə də nəzərdə tutduğumuz fəaliyyət proqramı əvvəlcədən hazır idi. Bura testlərin götürülməsi, beynəlxalq əməkdaşlıq, maarifləndirmə və sair məsələlər daxildir.

Şübhəsiz ki, COVİD-19 pandemiyası bütün sahələrə olduğu kimi, bizim fəaliyyətimizə də təsirini göstərdi. Biz bir müddət dopinq nəzarəti testlərinin keçirilməsi prosesini dayandırmalı olduq. Bu məqamda qarşıda duran əsas məsələ Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarları və ölkədəki karantin rejiminin tələblərinə uyğun olaraq fəaliyyətimizi qurmaq idi. Biz xüsusi onlayn toplantı keçirdik və mövcud vəziyyəti ətraflı təhlil edərək çevik qərarlar qəbul etdik. Bununla da əvvəlcədən hazır olan fəaliyyət proqramımızı Operativ Qərargahın və karantin rejiminin tələblərinə adaptasiya etdik.

Fəaliyyətimizin ən vacib istiqamətlərindən birini test keçirilmə prosesi təşkil edir ki, biz öz inspektorlarımızı bütün zəruri təhlükəsizlik vasitələrilə təmin etdik ki, onlar prosesi xüsusi geyimlər və maskalarda karantin rejiminin tələblərinə tam şəkildə riayət edərək həyata keçirsinlər.

Bildiyiniz kimi, AMADA-nın fəaliyyətində digər vacib istiqamət maarifləndirmədir. Bizim əməkdaşlarımız onlayn formada çoxlu sayda vebinarlarla maarifləndirmə işini həyata keçirirlər. Bu prosesə müvafiq respublika idman federasiyaları və idmançılar cəlb edilir. Artıq görülən işlərə əlavə olaraq biz idmançıların, onların köməkçi heyətlərinin və ümumiyyətlə bu sahə ilə maraqlananlar üçün antidopinq məlumatlılığının artırılması məqsədilə onlayn təhsildən istifadəyə önəm veririk. Bildiyiniz kimi, pandemiya şəraitində onlayn təhsilə olan tələb ümumiyyətlə artmışdır, lakin biz bu sahəyə hətta ondan əvvəl diqqət göstərməyə başlamışıq. Bildiyiniz kimi, idmançıların cədvəli həddindən artıq məşğul olur və onlara öz sürətləri və azad vaxtlarında yeni məlumat əldə etmək imkanını təmin etmək çox əhəmiyyətlidir.

Pandemiya dövrü ərzində beynəlxalq əməkdaşlıq məsələlərini də uğurla davam etdirdik. Bir çox beynəlxalq tədbirlərdə onlayn formatda iştirak etdik. Buna misal olaraq WADA-nın Milli Antidopinq Təşkilatları üzrə Xüsusi Məşvərət Qrupunun, WADA-nın Təhsil Komitəsinin, YUNESKO-nun "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiyası üzrə İmza Tərəflərin Milli Platformalarının, Avropa Şurasının İşçi Qruplarının və digər əməkdaşlıq görüşlərini göstərmək olar. Bu tədbirlərdə AMADA bir sıra təkliflərlə çıxış etdi və qəbul olunan qərarlarda bu təkliflər də öz əksini tapdı.

***- Keçirilən onlayn tədbirləri effektiv saymaq olarmı?***

-Təbii ki canlı ünsiyyətlə baş tutan tədbirlər daha effektlidir. Amma yaranmış şərait fəaliyyəti dayandırmaq üçün əsas deyil. Biz mövcud şəraitin tələblərinə uyğun olaraq bütün istiqamətlərdə fəaliyyətimizi davam etdirdik. Onlayn formatda keçirdiyimiz tədbirlərin effektini də görürük.

***- Postpandemiya dövründə AMADA hansı işləri görməyi planlaşdırır?***

- Bildirmək istəyirəm ki, AMADA öz fəaliyyətini uzun müddətli strategiya üzərində qurub. Belə ki, bizim 2019-2022 ci illəri əhatə edən inkişaf startegiyamız mövcuddur.

Burada nəzərdə tutulan bütün məsələlər təqvimə uyğun olaraq reallaşdırılır. Hətta zaman və şəraitin tələbləri nəzərə alınaraq bu proqrama müəyyən əlavələr edilir və biz bunu tam şəkildə icra edirik. Pandemiyanın nə vaxt bitəcəyi hələ məlum deyil. Belə şəraitdə effektiv fəaliyyəti təmin etmək üçün effektiv idarəetmə yanaşması, ələlxsus risklərin idarəedilməsi çox mühümdür. Biz mütəmadi olaraq vəziyyəti təhlil edir və buna uyğun addımlar atırıq. Yəni bizim müəyyən edilmiş fəaliyyət proqramımız var və onları mövcud vəziyyətə görə adaptasiya edib, icra edirik.

## "Antidopinq prosesinin əhəmiyyətli bir hissəsini maarifləndirmə təşkil edir"

***- AMADA-da yeniliklərlə bağlı xəbərləri izləyirik. Bunlardan biri də İdmançılar Məsləhətçi Komissiyasının yaradılması və bu komissiyaya sədr və sədr müavini seçilməsi idi. Mümkünsə, bu barədə məlumat verərdiniz.***

- İdmançı hüquqlarının qorunması AMADA-nın fəaliyyətində əsas prioritetlərdəndir. İdmançılar Məsləhətçi Komissiyasının missiyası da məhz AMADA daxilində idmançıları təmsil etmək və idmançıların hüquqlarının müdafiəsi və təmiz idmanın təşviqi ilə bağlı AMADA-ya tövsiyələr verməkdir. Qeyd edim ki, Komissiyanın tanınmış və peşəkar idmançılardan ibarət 12 üzvü var. Komissiyanın aktiv fəaliyyəti üçün ilk növbədə sədr və sədr müavini seçilməli idi. Keçirilən seçkilərdə komissiya üzvləri özləri namizədləri irəli sürdülər və onların yekdil rəyləri ilə tanınmış idmançılar İlham Zəkiyev sədr, Hacı Əliyev isə sədr müavini seçildi. Mən inanıram ki, idmançıların hüquqlarının müdafiəsi



və təmiz idmanın təşviqi baxımından komissiya aktiv olacaq və ümumi işimizə öz töhfəsini verəcək.

***- AMADA tərəfindən diskvalifikasiya edilən idmançılarımızın adları artmaqda davam edir.***

- Mən deməzdim ki, diskvalifikasiya edilən idmançıların sayı artır. Bu, illər üzrə rəqəmlərin müqayisəsində belə görünür. Əslində isə, bu keçirilən test saylarının nisbəti ilə hesablanmalıdır. Məsələn, biz 2017-ci ildə 487 test keçirmişik və 21 idmançı barədə antidopinq qayda pozuntusuna görə, idmandan uzaqlaşdırma qərarı verilib. Bu isə götürülən testlərin 4,5 faizini təşkil edir. 2018-ci ildə 817 test keçirilib və 27 antidopinq qayda pozuntusu aşkarlanıb. 2019-cu ildə isə 1594 test üzrə 22 qayda pozuntusu aşkarlanıb.



Bir məqamı da diqqətinizə çatdırım ki, mətbuatda adətən bu məsələyə idmançıların cəzalandırılması və idmandan uzaqlaşdırılması kimi yanaşılır. Amma burada daha vacib məqam ədalətin bərpa olunmasıdır. Nəzərə almalıyıq ki, dopinqdən istifadə edib nailiyyət qazanmış idmançı dürüst yarışan digər idmançıların hüquqlarını pozur. Məsələyə həm də hüquqları pozulan idmançıların hüquqlarının bərpası konteksindən yanaşılmalıdır. Bu, təmiz idmana və ədalətə olan inamı qorumaq üçün vacibdir.

Digər vacib məqam da antidopinq qayda pozuntusuna yol vermiş idmançıların məhz ölkə daxilində aşkarlanmasıdır. Arzuolunandır ki, idmançılar antidopinq qayda pozuntularına yol verməsinlər. Lakin, əgər belə hal baş verirsə, onların məhz ölkə daxilində aşkarlanması yaxşıdır, çünki beynəlxlaq yarışlarda aşkarlanan antidopinq qayda pozuntuları ölkəmizin idman nüfuzuna xələl gətirir.

## "Biz KİV-lə əlaqələrimizi daha da genişləndirmək niyyətindəyik"

***- Bir müddət əvvəl yayılan xəbərlərdə qeyd olunur ki, Ümumdünya Antidopinq Agentliyi (WADA) idman nəticələrinə təsir etməyən narkotik vasitələrdən istifadə üçün cəzanı yüngülləşdirəcək. AMADA-nın bu məsələ ilə bağlı fikirlərini bilmək istərdik.***

- Bəli, WADA səviyyəsində belə müzakirələr aparılıb və artıq qərar da qəbul edilib. Burada söhbət bir sıra narkotik tərkibli xüsusu maddələrdən gedir. Yəni antidopinq məcəlləsində bu maddələrin aşkarlanmasına görə, nəzərdə tutulan sanksiya üç aya endirilib. Amma idmançının hansı halda həmin maddədən istifadə etdiyi burada əsas götürülür. Əgər idmançı idman göstəricilərinin süni yüksəldilməsi məqsədi ilə bunu edibsə, ona yüngülləşdirilmiş sanksiya tətbiq edilmir. Yüngülləşdirilmiş hal yalnız o halda tətbiq edilir ki, idmançı həmin maddədən əyləncə, yaxud digər məqsədlə istifadə edib və onun idman göstəricilərinə təsir etməyib. Yeri gəlmişkən qadağan olunmuş maddələrin yeni siyahısı hər ilin sentyabrında açıqlanır və növbəti ilin yanvarın 1-dən qüvvəyə minir. Yəni bu ay biz biləcəyik ki, yüngül cəzanın nəzərdə tutulduğu maddələr hansılardır.

Mənim şəxsi fikrim isə ondan ibarətdir ki, idmanın fəlsəfəsində sağlamlıq dayanır. Yeni antidopinq məcəlləsində də sağlamlıq prinsipi ilk sıradadır. Narkotik vasitələr isə, insanın həm fiziki, həm də ruhi sağlamlığına təsir edən bir bəladır. Narkotik vasitələrin istifadəsi təmiz idmana və onun ruhuna ziddir. İdmançı həm də sağlam həyat tərzi ilə örnək olmalıdır.

***- Qurumun yerli KİV-lə əlaqələrində yeniliklər gözlənilirmi?***

- AMADA hər zaman mətbuata açıq bir qurum olub. İstənilən jurnalist onu maraqlandıran sualları bizə ünvanlaya və qısa müddətdə də cavab ala bilər. Məsələnin ikinci tərəfi isə ondan ibarətdir ki, biz özümüz mətbuatla geniş şəkildə əməkdaşlıq etməkdə maraqlıyıq. Çünki antidopinq prosesinin əhəmiyyətli bir hissəsini maarifləndirmə təşkil edir. Bu istiqamətdə KİV-in və sosial şəbəkələrin imkanları çoxşaxəlidir. Biz də bu imkanlardan maksimum yararlanmaq istəyirik. Xüsusilə nəzərə almalıyıq ki, Ümumdünya Antidopinq Məcəlləsinə əlavə və dəyişikliklər edilib. Milli Antidopinq agentlikləri, idman federasiyaları və idmançılar üzərinə yeni vəzifə və öhdəliklər qoyulub. Bu yeniliklərin ictimaiyyətə, o cümlədən də idman ictimaiyyətinə dolğun şəkildə çatdırılması vacibdir və bu məsələdə mətbuatın rolu əvəzsizdir. Biz KİV-lə əlaqələrimizi daha da genişləndirmək niyyətindəyik. Gələcəkdə mətbuatla birgə layihələr də reallaşdırmağı planlaşdırırıq.

***Anar Əhmədov***

Olimpiya dünyası



# FUTBOL

## ÇL: pley-off mərhələsi iki görüşdən ibarət olacaq

Çempionlar Liqasında pley-off mərhələsinin püşkü atılıb. İsveçrənin Nyon şəhərində keçirilən püşkatma mərasimində 6 cüt müəyyənləşib.

Bunlardan dördü Çempionlar, ikisi Liqa yolunun cütləridir. Azərbaycan çempionu "Qarabağ"ın Norveç "Molde"si ilə təşkil etdiyi cütün potensial rəqibi də bəlli olub. Ağdam təmsilçisi 3-cü təsnifat mərhələsində Norveçin "Molde" klubunu mübarizədən kənarlaşdıracağı təqdirdə, pley-offda "Dinamo" (Zaqreb, Xorvatiya - "Ferentsvaroş" (Macarıstan) cütünün qalibi üz-üzə gələcək.

Qeyd edək ki, pley-off mərhələsi bir yox, iki matçdan ibarət olacaq. İlk görüşlər sentyabrın 22-23-də, cavab qarşılaşmaları isə sentyabrın 29-30-da oynanılacaq.

## Avropa Liqası: "Neftçi "Qalatasaray"səddin keçsə...

Avropa Liqasında 3-cü təsnifat mərhələsinin püşkü atılıb.

UEFA-nın İsveçrənin Nyon şəhərindəki mənzil-qərargahında keçirilən tədbirdə əsas mübarizədə 26 cüt müəyyənləşib. Çempionlar yolunun isə 9 cütü bəlli olub. Qeyd edək ki, 3-cü təsnifat mərhələsinin oyunları sentyabrın 24-də keçiriləcək.

### Avropa Liqası
### 3-cü təsnifat mərhələsi

#### Əsas yol

"Honved" (Macarıstan)/ "Malmö" (İsveç) cütünün qalibi - "Lokomotiva" (Xorvatiya)

**"Ventspils" (Latviya)/ "Rusenborq" (Norveç) cütünün qalibi - "Alanyaspor" (Türkiyə)**

"Teuta" (Albaniya)/ "Qranada" (İspaniya) cütünün qalibi - "Lokomotivi" (Gürcüstan)/ "Dinamo" (M, Rusiya) cütünün qalibi

**LASK (Avstriya) - "Dunayska" (Slovakiya)/ "Yablonets" (Çexiya) cütünün qalibi**

"Bala Taun" (Uels)/ "Standard" (Belçika) cütünün qalibi - "Voyvodina" (Serbiya)

**OFİ (Yunanıstan)/ "Apollon" (Kipr) cütünün qalibi - "Lex" (Polşa)/ "Hammarbü" (İsveç) cütünün qalibi**

"Sportinq" (Portuqaliya) - "Vikinq" (Norveç)/"Aberdin" (Şotlandiya) cütünün qalibi

**"Kukesi" (Albaniya)/ "Volfsburq" (Almaniya) cütünün qalibi - "Desna" (Ukrayna)**

"Riyeka" (Xorvatiya) - "Aris" (Yunanıstan)/ "Kolos" (Ukrayna) cütünün qalibi

**"Şemrok Rovers" (İrlandiya)/"Milan" (İtaliya) cütünün qalibi - "Bodo Qlimt" (Norveç)/"Jalgiris" (Vilnüs, Litva) cütünün qalibi**

"Rostov" (Rusiya) - "Makkabi" (Hayfa, İsrail)/ "Jelezniçar" (Bosniya və Herseqovina)/ "Kayrat" (Qazaxıstan) cütünün qalibi

**"Beşiktaş" (Türkiyə) - "Borats" (Bosniya və Herseqovina)/ "Rio Ave" (Portuqaliya) cütünün qalibi**

"Nomme Kalyu" (Estoniya)/ "Mura" (Sloveniya) cütünün qalibi - "Orhus" (Danimarka)/ PSV (Niderland) cütünün qalibi

**"Şarlerua" (Belçika) - "Sfantul" (Moldova)/ "Partizan" (Serbiya) cütünün qalibi**

"Hibernians" (Malta)/ "Fehervar" (Macarıstan) cütünün qalibi - "Servett" (İsveçrə)/ "Reyms" (Fransa) cütünün qalibi

**"Sankt-Qallen" (İsveç) - AEK (Yunanıstan)**

"Botoşani" (Rumıniya)/"Şkendiya" (Şimali Makedoniya) cütünün qalibi - "Lokomotiv" (Plovdiv, Bolqarıstan)/"Tottenhem" (İngiltərə) cütünün qalibi

**"Proqress" (Lüksemburq)/ "Villem" (Niderland) cütünün qalibi - "Linkoln" (Cəbəllütariq)/ "Reyncers" (Şotlandiya) cütünün qalibi**

"Osiyek" (Xorvatiya)/ "Bazel" (İsveçrə) cütünün qalibi - "Anortosis" (Kipr)

**MOİK (Bolqarıstan)/BATE (Belarus) cütünün qalibi - B-36 (Farer adaları)/TNS (Uels) cütünün qalibi**

"Topola" (Serbiya)/ "Styaua" (Rumıniya) cütünün qalibi - "Riterlay" (Litva)/ "Slovan" (Çexiya) cütünün qalibi

**"Neftçi" (Azərbaycan)/ "Qalatasaray" (Türkiyə) cütünün qalibi - "Renova" (Şimali Makedoniya)/ "Hayduk" (Xorvatiya) cütünün qalibi**

"Höteborq" (İsveç)/ "Kopenhagen" (Danimarka) cütünün qalibi - "Pyast" (Polşa)/ "Hartberq" (Avstriya) cütünün qalibi

**"Kaysar" (Qazaxıstan)/APOEL (Kipr) cütünün qalibi - "Zrinski" (Bosniya və Herseqovina)/ "Olimpiya" (Sloveniya) cütünün qalibi**

"Laçi" (Albaniya)/ "Hapoel" (Beer-Şeva, İsrail) cütünün qalibi - "Kolreyn" (Şimali İrlandiya)/ "Motervell" (Şotlandiya) cütünün qalibi

**"Viktoriya" (Çexiya) - "Senderysk" (Danimarka)**

#### Çempionlar yolu

"Sarayevo" (Bosniya və Herseqovina) - "Astana" (Qazaxıstan)/ "Buduçnost" (Monteneqro) cütünün qalibi

**"Şerif" (Moldova) - "İnter" (Andorra)/ "Dandalk" (İrlandiya) cütünün qalibi**

"Ararat-Armeniya" (Ermənistan)/ "Fola" (Lüksemburq) cütünün qalibi - "Selye" (Sloveniya)

**"Riqa" (Latviya)/ "Tre Fiori" (San-Marino) cütünün qalibi - "Seltik" (Şotlandiya)**

"Kuopio" (Finlandiya)/ "Slovan" (Slovakiya) cütünün qalibi - "Suduva" (Litva)

**"Legiya" (Polşa) - "Sileks" (Şimali Makedoniya)/ "Drita" (Kosovo) cütünün qalibi**

"Klasksvik" (Farer adaları) - "Konnah" (Uels)/ "Dinamo" (Tbilisi, Gürcüstan) cütünün qalibi

**"Yurqorden" (İsveç)/ "Europa" (Cəbəllütariq) cütünün qalibi - ÇFR (Rumıniya)**

"Linfild" (Şimali İrlandiya)/ "Floriana" (Malta) cütünün qalibi - "Flora" (Estoniya)/ "Reykyavik" (İslandiya) cütünün qalibi

## Avropadan transfer xəbərləri

### İspaniya

"Barselona"nın futbolçusu İvan Rakitiç sabiq klubu "Sevilya"ya qayıdıb.




32 yaşlı xorvatiyalı yarımmüdafiəçi yeni komandası ilə 2 illik müqavilə imzalayıb. Xatırladaq ki, Rakitiç 2014-cü ildən "Barselona"da oynayır. O, 2011/14-cü illərdə "Sevilya"da çıxış edib.

* * *

Madrid "Real"ının futbolçusu Oskar Rodriges karyerasını "Sevilya"da davam etdirəcək. Komanda 22 yaşlı futbolçu ilə 5 illik müqavilə imzalayıb.

Bu transferə görə "Sevilya" Madrid klubuna 15 milyon avro ödəyib.

* * *

"Bavariya" "Barselona"dan icarəyə götürdüyünü Filippe Koutinyo ilə yollarını ayırıb. UEFA Çempionlar liqasının son qalibi braziliyalı hücumameyilli yarımmüdafiəçini birdəfəlik almaq hüququndan istifadə etməyib. Beləliklə, o, müqavilə ilə məxsus olduğu "Barselona"ya qayıdıb.

* * *

"Liverpul"un futbolçusu Jorjinyo Veynaldum kaeryerasını İspaniyada davam etdirəcək. 29 yaşlı yarımmüdafiəçi "Barselona"ya ən azı 20 milyon avro müqabilində keçməyə razılıq verib. Qeyd edək ki, Veynaldumun "Liverpul"la hazırkı müqaviləsi 2021-ci ilin yayında başa çatır.

### İtaliya

"Milan" futbolçusu Zlatan İbrahimoviçlə yeni müqavilə imzalayıb. İsveçli hücumçu ilə başa çatan müqavilənin müddəti 2021-ci ilin iyununa qədər uzadılıb. Qeyd edək ki, yanvarda "Milan"a qayıdan 38 yaşlı oyunçu ötən mövsümün 2-ci yarısı 20 matçda 11 qol vurub.



Yeni mövsümdə "Milan" Madrid "Real"ından icarəyə götürdüyü yarımmüdafiəçi Brahim Diasla yeni uğurlara can atacaq. Qeyd edək ki, "Real" İspaniyanın U-21 millisinin üzvünü 2019-cu ilin yanvarında "Mançester Siti"dən 17 milyon avroya transfer edib.

* * *

"Yuventus" "Şalke"nin yarımmüdafiəçisi Ueston MakKennini icarəyə götürüb.

"Qoca Sinyora" bu keçidə üçün Almaniya klubuna 4 milyon 500 min avro ödəyəcək. Bundan əlavə, müqaviləyə görə, "Yuventus" "Şalke"yə 18 milyon 500 min avro ödəyərsə, ABŞ millisinin 22 yaşlı futbolçusunu birdəfəlik transfer edə biləcək.

* * *

İspaniyalı qapıçı ispan Pepe Reyna yeni mövsümdən etibarən İtaliyanın "Latsio" klubunda çıxış edəcək. 37 yaşlı qolkiperlə bir illik müqavilə imzalanıb.

Qeyd edək ki, buna qədər Reyna "Milan"da çıxış edib.

* * *

"Roma" yeni mövsümdə də "Mançester Yunayted"in futbolçusu Kris Smollinqin xidmətlərindən yararlanacaq.

İngiltərəli müdafiəçi paytaxt klubu ilə 3 illik müqavilə imzalayıb. 18-20 milyon avro ilə dəyərləndirilən Smollinq ötən mövsüm icarə əsasında "Roma"da oynayıb.

### İngiltərə

"Mançester Yunayted" "Ayaks"ın futbolçusu Donni van de Beki transfer edib. 23 yaşlı niderlandlı yarımmüdafiəçi üçün İngiltərə təmsilçisi 40 milyon funt sterlinq ödəyib. Komanda futbolçu ilə 5 illik müqavilə imzalayıb.




* * *

"Mançester Siti"dən ayrılan Klaudio Bravo karyerasını "Betis"də davam etdirəcək. Bu barədə İspaniya klubunun saytı məlumat yayıb. 37 yaşlı çilili qapıçı ilə 1+1 illik müqavilə imzalanıb. Qeyd edək ki, 2016-cı ildən "Mançester Siti"də oynayan Bravo müqaviləsinin müddəti başa çatdığı üçün bu ay klubdan ayrılıb.

* * *

"Çelsi" "Bayer"in yarımmüdafiəçisi Kay Havertsi heyətinə cəlb edib.

"Zadəganlar" bu keçid üçün qarşı tərəfə 80 milyon avro təzminat ödəyib. Almaniya millisinin üzvü ilə 5 illik müqavilə imzalanıb.

"Çelsi" daha bir futbolçu ilə razılığa gəlib. "Zadəganlar" "Nitsa"dan Malanq Sarrın transferini rəsmiləşdirib. 21 yaşlı müdafiəçi ilə 5 illik müqavilə imzalanıb.

Xatırladaq ki bir müddət əvvəl "Çelsi"dən ayrılan Pedro Rodrigesin də "Roma"ya keçidi rəsmiləşib. Azad agent statusu daşıyan 33 yaşlı ispaniyalı hücumçu ilə 3 illik müqavilə imzalanıb. Qeyd edək ki, "Barselona"nın yetirməsi olan Pedro İspaniya millisi ilə DÇ-2010 və AÇ-2012-nin qalibi olub.

* * *

PSJ-dən ayrılan Tiaqo Silva yeni mövsümdən "Çelsi"də çıxış edəcək.

Braziliyalı mərkəz müdafiəçisi ilə 1+1 illik müqavilə imzalanıb. 35 yaşlı futbolçu "zadəganlar"a azad agent statusu ilə keçib.

* * *

"Tottenhem" heyətini "Vulverhempton"da çıxış edən Matt Doerti ilə gücləndirib.




London təmsilçisi 28 yaşlı yarımmüdafiəçi ilə 4 illik müqavilə imzalayıb.

"Tottenhem" bu keçidə görə qarşı tərəfə 12 milyon avro ödəyəcək.

* * *

"Arsenal" "Lill"dən Qabriel Maqalyaesi transfer edib. "Arsenal"ın 22 yaşlı müdafiəçi ilə 5 illik müqavilə imzaladığı və 30 milyon avro təzminat ödədiyi bildirilir. Qeyd edək ki, braziliyalı Qabriel ötən mövsüm Fransa çempionatında 24 matçda 1 qol vurub.

### Fransa

2018-ci ildən "Qalatasaray"da çıxış edən, bu yay İstanbul klubundan ayrılan Yaponiya millisinin sabiq müdafiəçisi Yuto Naqatomonun yeni klubu müəyyənləşib.

33 yaşlı müdafiəçi "Marsel"ə transfer olunub. Naqatomo Liqa 1 təmsilçisi ilə birillik müqaviləyə imza atıb.

* * *

"Monako" "Bayer"in hücumçusu Kevin Follandı transfer edib. 28 yaşlı alman oyunçu ilə 4 ilik müqavilə imzalanıb. "Monako"nun 20 milyon avro ödədiyi Folland ötən mövsüm Leverkuzen təmsilçisi ilə Bundesliqada 27 matçda 10 qol vurub.



# Dünya idmanı



## XII əsrin topları aşkar edilib

Böyük Novqorodda slavyanların müasir beysbol qaydalarına uyğun olaraq oynadıqları XII əsrə aid toplar tapılıb. Toplar şəhərin tarixi mərkəzində qazıntılar zamanı aşkar edilib.



"Alimlər Kremlin yaxınlığında XV Troiski qazıntılar ərazisində bir neçə kiçik dəri top və onların qalıqlarını tapıblar. Buradan belə məlum olur ki, keçmişdə toplar iki dəyirmi boşluqdan hazırlanıb. Onlar dəri lentlə tikilib, at tükü, mamır və toplara möhkəmlik verən digər materiallar ilə doldurulub", - deyə arxeoloqlar bildiriblər.

Arxeoloji tədqiqatların təşkili və təmin edilməsi Mərkəzinin baş elmi işçisi Andrey Stepanovun sözlərinə görə, qədim slavyanlar bu toplarla müasir beysbol qaydalarına uyğun olaraq rus pəncəsinə bənzər oyun oynayırdılar.

## Uilyams ailəsi Formula 1-dən ayrılır

Formula 1-in ən qədim komandalarından biri olan Uliyams rəhbərliyində dəyişiklik olacaq. Bu barədə komandanın rəhbəri və qurucusunun qızı Kler Uilyams məlumat verib. "Komandanın gələcəyinə zəmanət verildiyi halda idmandan uzaqlaşmaq üçün münasib vaxtdır. Bu komanda bizim üçün hər zaman əsas prioritet olub. Biz atdığımız hər addımda onun mənafeyini düşünmüşük. İndi isə yeni sahiblərinə təqdim edib, onlara komandanı gələcəyə aparmaq imkanı vermək məqamıdır. Bizə işimizi davam etdirmək təklifi etdiyi üçün "Dorilton Capital" şirkətinə minnətdarlığımızı bildiririk. Lakin biz bilirik ki, komandanı yaxşı və əmin əllərə ötürürük. "Uilyams" adı isə yaşamağa davam edəcək. Bu, Uilyams ailə komandası üçün son, "Uilyams Racing" üçün isə başlanğıcdır. Biz onlara gələcəkdə böyük uğurlar arzulayırıq", - deyə o, bəyanatda bildirib.




Qeyd olunur ki, İtaliya Qran-Prisindən sonra komandanın rəhbərliyi dəyişəcək.

Xatırladaq ki, bu komanda 1977-ci ildə Frank Uilyams və Patrik Had tərəfindən təsis edilib və "Ferrari" və "McLaren"dən sonra ən qədimi hesab olunur. Komandanın pilotlarının hesabında 114 qələbə və 749 Qran-Pri var. "Uilyams" doqquz dəfə Mühəndislər kubokunun sahibi olub. Britaniya komandasının pilotları sonuncu dəfə 1997-ci ildə olmaqla, yeddi dəfə dünya çempionu adını qazanıblar.



*Üfüqi*

*1. Rusiyada idman qurumu. 4. Çempionun mükafatı. 5. Tokio-2020 Yay Olimpiya Oyunlarının keçirilməsinə mane olan səbəb. 6. Beynəlxalq Olimpiya Muzeyinin yerləşdiyi şəhər. 7. Tokio-2020-nin mobil tərəfdaşı olan məşhur şirkət. 9. "Planetin ən sürətli adamı". 11. Monreal olimpiadasının talismanı. 12. Rus dilində "məşəl", futbol klubu. 13. Hollandiya voleybolu. 14. Elitar idman növü. 17. Rio-2016 Yay Olimpiya Oyunlarının futbol yarışlarında iştirak edən Afrika ölkəsi.*

*Şaquli*

*2. Melbrun, Sidney. 3. Hönsü adasında yerləşən, 1998-ci ildə Qış Olimpiya Oyunlarına ev sahibliyi edən şəhər. 7. Olimpiya oyunlarında ölkəmizə üç medal qazandıran ukraynalı legioner. 8. 2026-cı ildə Qış Olimpiya Oyunları bu şəhərdə təşkil olunacaq. 9. Olimpiya çempionu, ali qurumun rəhbəri. 10. 1968-ci ildə Olimpiya çempionu olan həmyerlimiz. 15. Olimpiya oyunlarının dördqat çempionu olan xizəkçi. 16. Afina-2004-ün qızıl mükafatçısı olan futbolçu.*

olimpnews.az - sizin saytınız



## Federasiya ölkə çempionatının keçiriləcəyi yeri açıqladı

Rusiya Boks Federasiyası 2020-ci ildə kişilər arasında ölkə çempionatının keçiriləcəyi məkan barədə məlumat verib. Turnir noyabrın 27-dən dekabrın 6-dək Rusiyanın Orenburq şəhərində təşkil olunacaq. Bu barədə Rusiyanın İjevsk şəhərində komanda Kubokunun keçirilməsi zamanı məlumat verilib.

AFFA İcraiyyə Komitəsinin üzvü, İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatları Futbol Məktəbinin direktoru, veteran futbolçu Kazbek Tuayev Məhəmməd Məmmədyarova, həyat yoldaşı

**İzida Fuad qızı Məmmədyarova-İbrahimbəyovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatları Futbol Məktəbinin kollektivi AFFA İcraiyyə Komitəsinin üzvü, veteran futbolçu Kazbek Tuayevə, yaxın qohumu

**İzida Fuad qızı Məmmədyarova-İbrahimbəyovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi veteran futbolçu Kazbek Tuayevə, yaxın qohumu

**İzida Fuad qızı Məmmədyarova-İbrahimbəyovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi veteran futbolçu Kazbek Tuayevə, yaxın qohumu

**İzida Fuad qızı Məmmədyarova-İbrahimbəyovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi iş yoldaşları Aslan Şirəliyevə, əzizi

**Təranə xanımın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19